RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 35 (8628) ÇƏRŞƏNBƏ AXŞAMI, 16 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Ali Baş Komandan İLHAM ƏLİYEV:

## "Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz!"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.

Bax: səh. 2



Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik.



Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir - biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik.



Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu.

# Ali Baş Komandan İLHAM ƏLİYEV:





AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaq üçün Füzuli rayonuna gəldi.

Məlumat verildi ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Dövlət başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində olublar.

Zəngilana gedərkən avtomobili özü idarə edən **Prezident İlham ƏLİYEV** dedi:

- Zəngilan rayonuna gəlmişik. Yolumuz Laçın rayonunadır. Yol boyunca Zəngilan rayonunda da tədbirlər var. Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır.

Bura Zəngilan şəhəridir. Biz burada artıq olmuşuq, yenə də gəlmişik. Zəngilan şəhəri də digər şəhərlər kimi düşmən tərəfindən demək olar tamamilə dağıdılmışdır. Bir neçə ev qalmışdır. Burada onların hərbi hissəsi, polis bölməsi yerləşirdi. Bir də ki, xaricdən gələn ermənilər, burada qanunsuz yaşayan ermənilər. Zəngilanı, bax bu günə qoyub mənfur düşmən.

Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək. Keçən dəfə Zəngilan şəhərinə gələndə bu bayrağı burada mən ucaltdım.

Zəngilan rayonunda birinci “ağıllı kənd” layihəsi icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb. Bu, dağılmış Ağalı kəndidir. Bərpa ediləcək birinci kənd məhz bu kənddir.

Dövlət başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq “ağıllı kənd” layihəsi barədə məlumat verildi.

Bildirildi ki, kənddə layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələridir.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevriləcəyini dəfələrlə bildirib. Erməni işğalından azad olunmuş ərazilərin dövlət başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Dövlət başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.









# “Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz!”







Daha sonra dövlət başçısı, birinci xanım və qızları Leyla Laçın rayonuna yola düşdülər.

Yol boyunca Qubadlı rayonunun işğaldan azad edilən kəndləri barədə danışan **Prezident İlham ƏLİYEV** dedi:

- Bura Qubadlı rayonunun Xəndək kəndidir. Burada da şiddətli döyüşlər gedib. Ordumuz düşməni buradan qovaraq, məhv edərək bu əraziləri də azad etmişdir. Düşmən burada da qanunsuz olaraq məskunlaşmışdı. Çox ağır şəraitdə yaşayıblar. Baxın, görün, onların yaşadıqları evlər it damından artıq deyil. Mən deyəndə ki, o vaxt işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, bunu nəzərdə tuturdum. Aclıq, səfalət, qanunsuzluq hökm sürürdü. Belə bərbad yollardan istifadə edirdilər. Bu işıq dirəklərini biz torpaqları azad edəndən sonra quraşdırdıq.

Qubadlı rayonunun Muradxanlı kəndi, ermənilər burada yaşayıblar, buranı da dağıdıblar. Artıq bərpa işləri gedir. Bu da Həkəri kəndidir. Baxın, nə gündədir, ermənilər bu it damında yaşayıblar. Dağıdılmış bu evlər erməni faşizminin törətdiyi əməllərdir. Bütün dünya görsün bunları. Bu da onların traktorudur.

Bala Soltanlı kəndi. Burada evlərin böyük hissəsi dağıdılıb, amma bəzi evlərdə düşmən qanunsuz məskunlaşma aparmışdı. Bu da hərbi cinayət sayılır. Bütün bu cinayətlərə görə düşmən artıq öz payını alıb, cavabını verib, beynəlxalq müstəvidə də cavabını verəcəkdir. Bizim şanlı ordumuz, bax, bu yolla Laçın rayonuna keçmişdir və Laçın rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. O cümlədən Güləbird kəndi də ordumuz tərəfindən işğalçılardan azad edilmişdir. Bura Laçın rayonunun cənub hissəsidir. Ordumuz işğalçılardan azad etmişdir. Şimal hissəsi isə Ermənistanın kapitulyasiyasından sonra bizə qaytarıldı.

Bu da Padar kəndidir.

Qubadlı rayonunun Yusifbəyli kəndi. Bu kənd də düşmən tərəfindən tamamilə dağıdılıb. Biz indi Laçın rayonuna gedirik. Laçın rayonunun Güləbird kəndinə. Zəngilan rayonunun İkinci Ağalı kəndində olduq, kəndin inkişafı ilə bağlı təqdimat edildi. Bir neçə aydan sonra İkinci Ağalı kəndinin yenidən qurulması prosesinə start veriləcək. Bu, bərpa ediləcək birinci kənd olacaq. İkinci Ağalı kəndi “ağıllı kənd” konsepsiyası əsasında qurulacaq. Eyni zamanda Birinci və Üçüncü Ağalı kəndlərinə qayıdacaq soydaşlarımız da eyni imkanlardan istifadə edəcəklər.

İndi isə Mərdanlı kəndinə daxil oluruq. Günəş də çıxır, yolumuzu işıqlandırır. Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik.

*Ardı 4-cü səh.*

# Ali Baş Komandan İLHAM ƏLİYEV:



## “Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz!”











*Əvvəli 3-cü səh.*

Bura artıq Laçın rayonunun ərazisidir. Bu, Həkəri çayıdır. Görün, nə gözəl çaydır? Çayımızı da düşmən istismar etmişdir, təbiətimizi də istismar etmişdir. Biz buna son qoyduq, düşməni rədd etdik.

Artıq Güləbird kəndindəyik. Güləbird kəndini də düşmən dağıdıb, talan edib. Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı və çıxış etdi.

*Bax: səh. 5*

# Prezident İlham Əliyevin çıxışı




- Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. “Azərişıq” artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün “Azərenerji” Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir.

Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində Su Elektrik Stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş - ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya ortahəcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.

Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da dağıdıb. O cümlədən “Güləbird” Su Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks-təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün biz 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpa olunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala “Xudafərin” və “Qız qalası” su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni biz bir neçə ildən sonra 120 meqavat “Xudafərin” və “Qız qalası” stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpa olunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot “ağıllı kənd” layihəsi də məhz bərpa olunan enerji ilə təchiz ediləcəkdir.

Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar “yaşıl enerji” zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı “yaşıl enerji” zonasına çevirəcəyik.

Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə - bax orada gördüyünüz “Güləbird” Su Elektrik Stansiyası artıq istismara verilir.

Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq, artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə, ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir - biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq. Eyni zamanda Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər.

Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var.

Bu, eyni zamanda ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim.

Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək, bax buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun, bax bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.

Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***Ardı 6-cı səh.***

# Ali Baş Komandan İLHAM ƏLİYEV:



*Əvvəli 5-ci səh.*

Sonra Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasının açılışında iştirak etdi.

Erməni qəsbkarlar işğal dövründə xislətlərinə uyğun olaraq digər yerlərdəki kimi, bu stansiyanı da darmadağın ediblər. Dövlət başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.

Prezident İlham Əliyev "Güləbird" Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, "Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.









# “Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz!”



Sonra dövlət başçısı, birinci xanım və qızları Leyla Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəldilər.

Erməni qəsbkarlar işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıb. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər.

Sonra dövlət başçısı, birinci xanım və qızları Bəsitçaya balıq buraxdılar.

**Prezident İlham ƏLİYEV:**

- Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik.

Eyni zamanda Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir.

*Ardı 8-ci səh.*





















# Ali Baş Komandan İLHAM ƏLİYEV:

## “Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz!”











*Əvvəli 7-ci səh.*

Sonra dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.

**Prezident İlham ƏLİYEV:**

- Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa edəcəyik. Eyni zamanda göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etmişik və 7 min hektarda əkin işləri aparılmışdır. O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq. Yəni biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək.

Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

# Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,

Əziz qardaşım!

Xain terror aktı nəticəsində Türkiyə vətəndaşları olan 13 günahsız mülki şəxsin qəddarcasına qətlə yetirilməsi xəbəri bizi olduqca sarsıtdı.

Biz dinc insanlara qarşı yönəlmiş bu dəhşətli terror əməlindən hədsiz dərəcədə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, qətlə yetirilənlərin ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2021-ci il*

# "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669; 2019, № 1, maddə 35, № 3, maddə 381, № 12, maddə 1892; 2020, № 1, maddə 1, № 5, maddə 521, № 7, maddə 831, № 9, maddə 1136) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1.22-ci maddəyə "uşaqlar," sözündən sonra "şəhid ailəsinin üzvləri," sözləri əlavə edilsin.
2. 20.3-cü maddəyə "şəxslər" sözündən sonra ", habelə şəhid ailəsinin üzvləri" sözləri əlavə edilsin.
3. 24.9-cu və 25.5-ci maddələrə "uşaqlara," sözündən sonra "şəhid ailəsinin üzvlərinə," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2021-ci il*

# Baş nazir Əli Əsədov Türkiyənin vitse-prezidenti Fuat Oktaya başsağlığı verib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 14-də Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktaya başsağlığı məktubu ünvanlayıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Məktubda bildirilir ki, terror aktı nəticəsində günahsız Türkiyə vətəndaşlarının qətlə yetirilməsi xəbəri bizi son dərəcə kədərləndirdi.

Baş nazir qeyd edib ki, biz bu amansız terror aktından olduqca hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə mübarizə aparılmasını zəruri hesab edirik.

Baş nazir Əli Əsədov faciə ilə əlaqədar Fuat Oktaya dərin hüznlə başsağlığı verib.

# Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntopa başsağlığı verib

Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova fevralın 14-də Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntopa başsağlığı ünvanlayıb. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Milli Məclisin sədri İraqın Kara bölgəsində 13 nəfər mülki türk vətəndaşının xain terror təşkilatı tərəfindən qətlə yetirilməsindən dərin təəssüf duyduğunu, həlak olanlara Allahdan rəhmət dilədiyini bildirib, qardaş Türkiyə dövlətinə, həyatlarını itirənlərin ailələrinə, yaxınlarına Milli Məclis adından başsağlığı ifadə edib.

# Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin 25 illiyi münasibətilə Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Zəkiyev İlham Əzizağa oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**
Rəhimov İlqar Elxan oğlu

**"Tərəqqi" medalı ilə**
Abbasov İlqar Əziz oğlu
Əlizadə Ülkər Ələsgər qızı
Hacıyev Yaşar Fərəc oğlu
Məhərrəmov İlham Nadir oğlu
Muradov Əkbər Ədalət oğlu
Mürsəlov Rauf Dadaş oğlu
Ramazanzadə Mehman Əbil oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2021-ci il*

# Prezidentin köməkçisi Bakı Ali Neft Məktəbində olub





Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bakı Ali Neft Məktəbinin (BANM) kampusunu ziyarət edib.

BANM-dən AZƏRTAC-a bildirilib ki, Hikmət Hacıyev ali məktəbdə yaradılmış tədris şəraiti, maddi-texniki baza, sosial infrastruktur və tədqiqat mühiti ilə yaxından tanış olub. Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov yüksəkkeyfiyyətli tədris üçün yaradılan şərait, innovasiyaların təhsildə tətbiqi, gələcək perspektivlər barədə qonağa ətraflı məlumat verib. Bakı Ali Neft Məktəbinin tədris otaqlarına, tədqiqat laboratoriyalarına, İnnovasiya Mərkəzinə, müasir texnoloji kitabxanasına, çoxprofilli konfrans zallarına, neft tarixinə dair nadir eksponatların yer aldığı muzeyə baxış keçirilib.

Daha sonra Hikmət Hacıyev BANM-in tələbə, professor-müəllim heyəti və əməkdaşlarının iştirak etdiyi görüşə qatılıb. Karantin qaydalarına uyğun şəkildə, sadəcə, bir qisim iştirakçı ilə təşkil edilən canlı görüş paralel olaraq onlayn formatda da yayımlanıb. Onlayn görüşə 900-dək iştirakçı qatılıb.

İlk olaraq tədbir iştirakçılarını salamlayan rektor Elmar Qasımov 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin komandanlığı ilə qazanılan böyük Zəfərdə ölkəmizin informasiya müharibəsindəki üstünlüyündən də bəhs edib. O, geniş miqyasda təşkilatlanmış formada həyata keçirilən təbliğat-təşviqat, informasiya mübadiləsi, ordunun və xalqın ruh yüksəkliyinin qorunub saxlanılmasında düzgün informasiya siyasətinin həyata keçirildiyini və Hikmət Hacıyevin bu işdə xüsusi rolunu qeyd edib.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, ölkə başçısının yürütdüyü gənclər siyasətinin və təhsilə olan qayğısının nəticəsində bu gün Bakı Ali Neft Məktəbində müasir tədrisin komponentlərini özündə birləşdirən istər tədris metodologiyası baxımından, istər infrastruktur nöqteyi-nəzərindən çox mükəmməl bir ab-hava mövcuddur. O, hər zaman Bakı Ali Neft Məktəbinin fəaliyyətini, əsasən də tələbə qəbulu imtahanları zamanı yüksək bal toplayan abituriyentlərin BANM-i seçməsini xüsusi diqqətlə izlədiyini vurğulayıb. "Bu gün şahidi oldum ki, burada təhsil almaq üçün bütün mükəmməl şərait yaradılıb. Bizim təhsil aldığımız dövrlə müqayisədə sizə potensialınızı tam şəkildə ifadə etmək üçün çox gözəl mühit yaradılıb. Bakı Ali Neft Məktəbində Azərbaycanın gələcək mühəndisləri, innovativ inkişafına təkan verə biləcək gəncləri görməkdən və onlar arasında gender bərabərliyinin qorunmasından əlahiddə olaraq şadam. Biz öyrəşmişdik ki, mühəndislər arasında daha çox kişiləri görək, amma bu gün qadın mühəndislərin də olması olduqca qürurvericidir. Bildiyiniz kimi, dünya elm və innovasiyalar əsasında inkişaf edir və elmdə, innovasiyada qalib olan ölkələr digər sahələrdə də qalibiyyətlərini təmin edirlər. Bu sahədə dünya ölkələrində kəskin və ciddi rəqabət müşahidə olunur. Artıq hər bir ölkənin potensialı tapılan neftin, daş kömürün həcmi ilə deyil, məhz insan resurslarının potensialı ilə ölçülür. Buna görə də hesab edirəm ki, 650-700 bal toplayaraq bu məbədə qəbul olunan tələbələr ölkəmizin innovativ inkişafını təmin edənlər olacaqlar. Mən istərdim ki, sizin aranızda Azərbaycanın ilk "Nobel" mükafatı laureatları da olsun", - deyə H.Hacıyev tələbələrlə tövsiyələrini də bölüşüb.

O, böyük Zəfərin qazanılmasında Azərbaycan Respublikası Prezidentinin 17 illik hakimiyyəti dövründə yetişən, ölkə başçısından ilhamlanan gənclərin rolundan danışarkən tələbə-mühəndisləri Ermənistanın vandalizm siyasətinin fəsadlarının aradan qaldırılması üçün innovativ həllər təklif etməyə səsləyib.

Tədbir çərçivəsində Hikmət Hacıyevə Bakı Ali Neft Məktəbinin "Fəxri qonağı" plaketi təqdim olunub.

Daha sonra Prezidentin köməkçisi BANM-in təşkil etdiyi "Vətən yaxşıdır" onlayn bədii qiraət müsabiqəsinin qalibinə diplom və mükafatını təqdim edib.

Görüş müxtəlif mövzuları əhatə edən sual-cavab sessiyası ilə yekunlaşıb.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə rəsmi səfərdədir





Azərbaycan və Türkiyə prokurorluqları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Bekir Şahinin dəvəti ilə Ankaraya rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, fevralın 15-də nümayəndə heyəti Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib.

Böyük Atatürkün əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub. Azərbaycanın baş prokuroru xatirə kitabına ürək sözlərini yazıb.

Daha sonra Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib.

Nümayəndə heyətini səmimi salamlayan Türkiyə Ali Məhkəməsinin baş prokuroru Bekir Şahin bütün sahələr kimi, ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edib, İraqın Qara bölgəsində xain terror aktı nəticəsində 13 günahsız mülki şəxsin qəddarcasına qətlə yetirilməsi ilə bağlı başsağlığı verib.

Tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini bildirən baş prokuror bu əlaqələrin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət", Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları ilə dəqiq ifadə edildiyini vurğulayıb. Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri ilə reallaşan mühüm strateji layihələrin ölkələrimizi daha da yaxınlaşdıracağını, xalqlarımızın rifahına xidmət göstərəcəyini xüsusi qeyd edib.





Azərbaycanın baş prokuroru Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin siyasi iradəsi və müdrik rəhbərliyi ilə uzun illərdən sonra ölkəmizin ərazi bütövlüyünü bərpa edərək, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qətnamələrinin tələblərini icra etdiyini vurğulayıb. Kamran Əliyev 44 günlük Vətən müharibəsi dövründə qardaş Türkiyə tərəfindən göstərilən mənəvi dəstəyə görə təşəkkürünü bildirib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb. Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər müzakirə edilib, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Azərbaycanın baş prokuroru Türkdilli Dövlətlərin Baş Prokurorlarının Əməkdaşlıq Şurasının yaradılması və təsis iclasının da rəmzi olaraq ölkəmizdə keçirilməsi ilə bağlı təşəbbüs irəli sürüb.

Həmin gün nümayəndə heyətinin Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gül ilə də görüşü keçirilib.

Görüşdə ölkələrimizin ədliyyə orqanları arasında mövcud əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb, ölkələrimiz arasında hüquqi əməkdaşlıq, ekstradisiya, hüquqi yardım, prokurorların təlimi və maraq kəsb edən digər mövzular, eləcə də əməkdaşlığın perspektivləri ətrafında səmərəli və faydalı fikir mübadiləsi aparılıb.

Görüşlərdə Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim də iştirak edib.

Nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.

# Beynəlxalq Valyuta Fondu ilə iqtisadi artımı dəstəkləyəcək addımlara dair müzakirələr aparılıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov Beynəlxalq Valyuta Fondunun virtual missiyası ilə görüşüb.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan iqtisadiyyatında inkişaf meyilləri, 2021-2022-ci illər və ortamüddətli dövr üzrə perspektivlər, COVID-19 pandemiyası fonunda iqtisadi risklər və Azərbaycan hökumətinin adekvat cavab tədbirləri barədə fikir mübadiləsi aparılıb.

Nazir pandemiyanın milli iqtisadiyyata və biznes subyektlərinə göstərdiyi təsirlər, Azərbaycan hökumətinin müvafiq dəstəkləyici tədbirləri barədə məlumat verib, postpandemiya dövrü və ortamüddətli dövr üçün ölkənin iqtisadi prioritetlərini qeyd edib. Bildirilib ki, dövlət başçısının sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib və Azərbaycan hökuməti öz işini bu sənədin müəyyən etdiyi istiqamətlər üzrə quracaq.

M.Cabbarov Azərbaycanın yeni bir strateji dövrə daxil olduğunu, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, Qarabağ bölgəsinin inkişafına nail olunması və onun iqtisadi imkanlarının reallaşdırılmasının təkcə postpandemiya deyil, həm də postkonflikt dövrünün keyfiyyətcə yeni mərhələsi olduğunu bildirib. Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiya rəhbəri Natalia Tamirisa fondun mütəxəssisləri tərəfindən fevral ayında keçirilmiş virtual missiyanın yekunları barədə danışıb və bu yekunlara dair məlumatları iqtisadiyyat nazirinə təqdim edib.

Tərəflər missiyanın fəaliyyətinin yekunları, iqtisadiyyatın real sektoru, qeyri-neft sektorunun inkişaf proqnozları, iqtisadi artımı dəstəkləyəcək addımlar və təşəbbüslər, yeni çağırışlara uyğun vergi siyasəti məsələləri, o cümlədən şəffaflığın gücləndirilməsi tədbirləri və sair barədə müzakirələr aparıblar.

# Hərbi qulluqçularımız "Qış təlimi-2021"də ölkəmizi layiqincə təmsil edərək xidmət yerlərinə qayıdıblar

Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Türkiyə Respublikasının Qars şəhərində keçirilmiş "Qış təlimi-2021"də ölkəmizi layiqincə təmsil edərək xidmət yerlərinə qayıdıblar.



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, fevralın 11-də "Qış təlimi-2021"in "Yüksək Səviyyəli Müşahidəçi Günü" və döyüş atışlı mərhələsi keçirilib. Təlimin döyüş atışlı mərhələsində hərbi daşıma və hücum helikopterlərinin dəstəyi ilə desant qrupları düşmən hədəflərinin olduğu nöqtəyə irəliləyiblər.

ATAK hücum helikopterləri xüsusi təyinatlıların təhlükəsizliyini təmin edib. PUA-ların dəstəklədiyi artilleriyaçılar təyin olunan düşmən mövqelərini məhv ediblər. Zirehli texnikaların ekipajları tankların və piyadaların döyüş maşınlarının tətbiqi ilə müxtəlif manevrlər və atışlar həyata keçiriblər. Aviazərbələrlə düşmən tanklarını imitasiya edən hədəflər məhv edilib. Keçidaçma sistemi vasitəsilə minalardan təmizlənən sahədə irəliləyən qoşunlarımızın maneəsiz hərəkəti mühəndis bölmələri tərəfindən təmin olunub. Snayper cütlüklərinin hədəfləri tam dəqiqliyi ilə məhv etdiyi təlimdə helikopterlər topları təlim sahəsinə gətiriblər. Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqlarının açıldığı paraşüt atlayışı ilə təlim başa çatıb.

"Qış təlimi-2021"ə hər iki qardaş ölkənin mətbuatı ilə yanaşı, xarici kütləvi informasiya vasitələri də böyük maraq göstəriblər. Türkiyə televiziyalarının hazırladığı reportajlarda Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının peşəkarlığından danışılıb, təlim iştirakçılarından müsahibələr alınıb.

Qış təlimində iştirak etmiş hərbi qulluqçularımız fevralın 12-də xidmət yerlərinə qayıdıblar. Türkiyə Respublikasından qayıdan şəxsi heyət hərbi hissələrdə təntənəli mərasimlə qarşılanıb.

# Biz birlikdə güclüyük!

## *Hikmət HACIYEV:* "COVID-19 başlayandan sonra biz səhiyyə sistemimizin pandemiyaya hazırlanmasını təmin etdik"

"Azərbaycanda koronavirus yayılmağa başladığı dövrdən biz səhiyyə sistemimizin COVID-19 pandemiyasına hazırlanmasını təmin etdik, onu yeni reallıqlara uyğunlaşdırdıq. Çünki Azərbaycan bundan əvvəl belə bir pandemiya ilə üzləşməmişdi və səhiyyə sistemində müəyyən dəyişikliklər edilməli idi".



AZƏRTAC xəbər verir ki, bu sözləri Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə fevralın 15-də keçirilən "COVID-19 pandemiyası və peyvəndləmənin geosiyasi aspektləri" mövzusunda beynəlxalq vebinarda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan öz təcrübəsinə əsasən beynəlxalq səviyyədə bir sıra təşəbbüslər irəli sürüb, xüsusilə beynəlxalq səylərə dəstəyini göstərib. Hikmət Hacıyev deyib: "Çünki hamı təhlükəsiz olmasa, heç kim təhlükəsiz ola bilməz. Ona görə də yerli və beynəlxalq səviyyədə tədbirlər bir-birini tamamlamalı idi. Bu yanaşmaya əsasən, biz Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq qurduq. Bu əməkdaşlıq çərçivəsində Türk Şurasının və Qoşulmama Hərəkatının pandemiyaya həsr olunmuş sammitlərini təşkil etdik. Tədbirlərdə pandemiyaya qarşı birgə mübarizə məsələləri müzakirə olundu. Həmçinin səhiyyə mütəxəssislərinin görüşləri təşkil edildi".

Prezidentin köməkçisi, həmçinin qeyd edib ki, COVID-19-la əlaqədar Azərbaycan Prezidenti BMT-nin növbədənkənar sessiyasının çağırılması təşəbbüsünü irəli sürüb və bu təşəbbüs BMT-yə üzv dövlətlər tərəfindən dəstəklənib.

## Dövlət qurumları əməkdaşlarının peyvənd olunmasına başlanılıb

İki gündür ki, modul tipli xəstəxanada hazırlıq işləri aparılır. Artıq həmin prosesə tam hazırıq. Bu gün Nazirlər Kabinetinin 32 əməkdaşı peyvənd olunacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Kliniki Tibbi Mərkəzin modul tipli xəstəxanasının məsul şəxsi, həkim-infeksionisti Maisə Heybətova deyib.

Digər dövlət orqanlarının əməkdaşlarının da bu gün vaksinasiyadan keçəcəyini qeyd edən həkim onu da qeyd edib ki, Azərbaycana gətirilən və artıq bir aya yaxındır ki, tətbiq edilən Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksini tam təhlükəsizdir.

Vaksinasiya prosesi zamanı əməkdaşlar əvvəlcə gözləmə otağına daxil olur, sonra onların qeydiyyatı aparılır.

Peyvənd olunmağa gələnlər həkim müayinəsindən keçir. Onların təzyiqi və hərarəti ölçülür, yanaşı xəstəliklərinin olub-olmadığı öyrənilir. Sonra peyvənd olunmağa gələn vətəndaşlar qeydiyyat otağına yaxınlaşaraq şəxsiyyət vəsiqəsini təqdim edir, lazımi qeydiyyat aparılandan sonra epileptik və allergik xəstəlikləri yoxdursa, peyvənd olunmaq üçün inyeksiya üçün ayrılan otağa keçir və peyvənd olunurlar. Peyvənd vurulandan sonra vətəndaş 30 dəqiqə həkim müşahidəsində saxlanılır. Həmin müddət ərzində peyvəndin əlavə yan təsiri və allergik reaksiyası olmadıqda onların xəstəxanadan çıxmasına icazə verilir.

İlk dozanı vurduran əməkdaşların hər birinə vaksinin ikinci dozasının vurulma tarixi barədə məlumat verilib.

Gün ərzində peyvənd olunan əməkdaşların heç birində yan təsirlər və heç bir narahatlıq müşahidə edilməyib.

## Azərbaycan ön sıralardadır

Bu gün Azərbaycanda vaksinasiya tədbirlərinə başlanılmasından 28 gün keçir. Bu müddət ərzində bütün səhiyyə işçiləri, kollektivimiz vaksinasiya tədbirlərinə cəlb olunublar. Əhalinin müxtəlif qruplarından vaksinasiya olunmaq istəyi ilə xəstəxanaya kifayət qədər müraciət daxil olub.

Vaksinasiya tədbirləri aidiyyəti qurumlar tərəfindən xüsusi yaş qrupları, peşə, ixtisas və iş yerlərinə görə qruplaşdırılıb. Xəstəxanada Azərbaycanda akkreditasiya olunmuş 23 ölkənin səfirliyinin, 14 beynəlxalq təşkilatın üzvlərinə və buradakı nümayəndələrinə vaksinasiya həyata keçirilib. Onlar da çox həvəslə vaksinasiyada iştirak edirlər. Bu müddət ərzində heç bir ciddi əks-təsir və reaksiya qeydə alınmayıb.

AZƏRTAC xəbər verir ki, bunu Bakı Sağlamlıq Mərkəzinin icraçı direktoru Asiman Həsənov deyib.

O bildirib ki, bu gün pandemiyadan yeganə çıxış yolu vaksinasiyadır. Azərbaycan da vaksinasiyanı həyata keçirən ölkələr arasında ön sıralardadır. İcraçı direktorun sözlərinə görə, bu gündən xəstəxananın bəzi əməkdaşlarına vaksinin ikinci dozasının vurulmasına başlanılıb. Yanvarın 18-də xəstəxanada ilk dozanı vurduran rəsmi şəxslər bu gün ikinci dozanı vurduracaqlar.

"Bu gün Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı da vaksin vurdurdu. Bu onu göstərir ki, bütün tibb işçiləri də, dünya təşkilatları da bu vaksinasiyanın tərəfdarıdırlar. Vaksinasiya tədbirləri Azərbaycanda kifayət qədər geniş vüsət alıb", - deyə A.Həsənov qeyd edib.

## *Hande HARMANCI:* "Azərbaycanın koronavirus əleyhinə vaksini qısa müddət ərzində ölkəyə gətirməsi nəzərəçarpacaq uğurdur"

"Bu gün yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinin birinci dozasını vurdurdum. Dörd həftə sonra ikinci dozanı da vurduracağam və nəticədə COVID-19-a qarşı qorunmuş olacağam. Azərbaycan hökumətinə bizə bu imkanı yaratdığı üçün minnətdaram. Vaksinasiya pandemiya ilə mübarizə üçün çox önəmlidir. Buna görə də hər kəsin peyvənd olunmasını tövsiyə edirəm".




AZƏRTAC xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib.

Onun sözlərinə görə, iki vaksinin eyni anda tətbiqinə dair tədqiqatlar davam edir: "İki fərqli vaksinin istifadə oluna bilməsi, səmərəsi, təsirli olması, təhlükəsizliyi araşdırılır. Hələ ki əlimizdə bununla bağlı nəticə yoxdur. Bununla yanaşı, koronavirus əleyhinə xeyli vaksin hazırlanmağa başlanılıb. Ümid edirəm ki, yaxın zamanlarda yaxşı nəticələr əldə olunacaq.

Vaksinlərin hamısı bir-birindən üstündür. Lakin həmin üstünlüklər tam olaraq bilinmir. Bəzi peyvəndlərin bir sıra yaş qruplarında - bir qisminin gənclərdə, bir hissəsinin uşaqlarda effektiv ola biləcəyi ehtimal olunur. Hələ ki bunlar yavaş-yavaş öyrənilir. Ümid edirəm ki, daha yaxşı nəticələr əldə edə biləcəyik. Hansı vaksin olmasından asılı olmayaraq, təhlükəsiz və təsirli olan peyvəndləri nə qədər sürətlə dünyaya yaya bilsək, hər kəs üçün bir o qədər yaxşı olacaq.

Dünyanın bir çox ölkəsində vaksinasiya prosesinə başlanılsa da, daha çox ölkə hələ ki prosesdən kənarda qalıb. Qısa müddət ərzində Azərbaycanın koronavirus əleyhinə vaksini ölkəyə gətirməsi nəzərəçarpacaq uğurdur. Ümid edirəm ki, vətəndaşlar vaksinin yeganə çıxış yolu olduğunu dərk edər və prosesə sürətli şəkildə qoşularlar. Əvvəlcə, səhiyyə işçilərinin peyvənd olunması vacibdir. Bildiyimiz qədəri ilə Azərbaycanda xeyli səhiyyə işçisi vaksinasiyadan keçib. Bu da həm özlərinin, həm də pasiyentlərin təhlükəsizliyi üçün vacibdir".

H.Harmancı bildirib ki, vaksinlər əvvəlcə laboratoriyada sınaqdan keçirilir. Sonra kiçik, daha sonra böyük qruplar üzərində sınaq aparılır: "Hazırda vaksinasiyanın tətbiqi dördüncü fazadadır. Çünki böyük əhali qrupuna vurulur. "Sinovac" şirkətinin son açıqladığı təsirlilik dərəcəsi 50 faizdən çoxdur. Ümumdünya Səhiyyə Təşkilatı da təsirlilik dərəcəsi 50 faizdən yuxarı olan vaksinləri qənaətbəxş kimi qiymətləndirir. Əsl önəmli olan vaksinasiyanın yoluxmaya nə dərəcədə təsir etməsidir. Azərbaycanda da bu təsiri qısa müddətdə görəcəyik".

❖ ❖ ❖

Yeni növ koronavirus (COVID-19) pandemiyası həyatımızda gördüyümüz ən pis pandemiyadır və qlobal olaraq bütün dünyaya təsir edib. Baxmayaraq ki, bütün ölkələr təsirə məruz qalıb, lakin ən kasıblar daha çox əziyyət çəkir. Sözsüz ki, daha həssas ölkələr və əhali qrupları daha çox təsirə məruz qalıb. Yaxşı xəbər budur ki, dünya səviyyəsində yeni yoluxma hallarının sayı azalmaqdadır. Təxminən 70 faizə qədər azalma var. Lakin bir çox ölkədə gündəlik yoluxma hallarında artım müşahidə olunur.

AZƏRTAC xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı "COVID-19 pandemiyası və peyvəndləmənin geosiyasi aspektləri" mövzusunda keçirilən beynəlxalq vebinarda deyib.

H.Harmancı bildirib ki, pandemiya qlobal səviyyədə səhiyyə sisteminin hazırlığı və çevikliyinin əhəmiyyətini bir daha ön plana çıxarıb: "Pandemiyanın ilk ilini arxada qoyandan sonra qlobal səylər nəticəsində əlimizdə artıq bir sıra vaksinlər və diaqnostika metodologiyası var. Bunlarla pandemiyaya nəzarət etmək mümkündür. Bu həm ümid yaradır, həm də sınaqdır. Sözsüz ki, pandemiya ilə mübarizədə çox mühüm bir mərhələyə gəlib çatmışıq. Vaksinasiyadan əlavə, əl gigiyenasına, fiziki məsafə prinsiplərinə, maska istifadəsinə diqqət yetirilməlidir. Çünki virusun yeni variantları, ştammları ortaya çıxa bilər".

❖ ❖ ❖

Təəssüf ki, peyvəndlərin dünyada paylanması ilə bağlı bərabərsizlik artır. Vaksinləri tətbiq edən ölkələrin 90 faizi zəngin ölkələrdir. Hazırda 3,5 milyon doza 10 ölkəyə paylanılıb. 2,5 milyard əhalisi olan 130 ölkə isə vaksinin heç bir dozasını əldə edə bilmir.

AZƏRTAC xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı "COVID-19 pandemiyası və peyvəndləmənin geosiyasi aspektləri" mövzusunda keçirilən beynəlxalq vebinarda deyib.

Onun sözlərinə görə, həmin bərabərsizliyi aradan qaldırmaq üçün birgə işləmək, yeni texnologiyalar, diaqnostika mərkəzləri yaratmaq lazımdır.

H.Harmancı Ümumdünya Səhiyyə Təşkilatının COVAX platformasının sırf bərabərsizliyi aradan qaldırmaq üçün yaradılan təşəbbüs olduğunu da diqqətə çatdırıb.

## Yoluxmanın azalması heç kəsdə arxayınçılıq hissi yaratmamalıdır

Həkimlərə təşəkkürümüzü bildiririk və vətəndaşlara da çağırış edirik ki, Səhiyyə Nazirliyinin və TƏBİB-in verdiyi tövsiyələrə əsasən peyvənd işində fəallıq göstərsinlər.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti Aparatının sektor müdiri Qurban Sadıqov Nazirlər Kabinetinin əməkdaşlarının vaksinasiyası zamanı jurnalistlərə deyib.

Dövlət qurumlarında çalışan əməkdaşların vaksinasiyası üçün hər şeyin yüksək səviyyədə təşkil olunduğunu qeyd edən sektor müdiri deyib: "Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən bütün tədbirlər həyata keçirilir ki, koronavirusun ölkəmizdə yayılmasının qarşısı alınsın. Çox sevindirici haldır ki, son günlər ölkəmizdə yeni növ koronavirusa yoluxanların sayı minimal həddə çatıb. Lakin yoluxmaların azalması heç kimdə arxayınlıq yaratmamalıdır. Ona görə də hər kəs həm Səhiyyə Nazirliyinin, həm də TƏBİB-in tövsiyələrini yerinə yetirməlidir".

## İkinci doza vaksinasiyaya start verildi

Ötən ilin martından pandemiya elan edilən COVID-19 sürətlə yayılaraq yoluxdurduğu insanların sayını hər ötən gün artırır. Ümumdünya Səhiyyə Təşkilatının gündəlik hesabatında deyilir ki, dünyada koronavirusa yoluxanların sayı son sutka ərzində 300 mindən çox artıb. Beləliklə, yoluxanların ümumi sayı 108 milyonu, bu virusdan həyatını itirənlərin sayı isə 2 milyonu ötüb.




Qlobal bəlanın qarşısını almaq üçün hazırda əksər ölkələrdə koronavirusa qarşı vaksinasiya prosesi aparılır. Azərbaycanda da yanvarın 18-dən tibb işçilərinin koronavirusa qarşı peyvəndlənməsi ilə vaksinasiya prosesinə start verilib.

Fevralın 8-dən isə 65 yaşdan yuxarı şəxslərin COVID-19 infeksiyasına qarşı vaksinasiyasına başlanılıb. Bu kateqoriyadan olan şəxslər "randevu.its.gov.az" saytı vasitəsilə və ya ərazi üzrə poliklinikanın qeydiyyat şöbəsi ilə telefon əlaqəsi saxlayıb öz məlumatlarını verərək qeydiyyatdan keçə bilərlər.

Vaksinasiyanın ilk dozası üçün randevu götürüldükdə, avtomatik 2-ci doza üçün də 28 gün sonra həmin müəssisəyə və həmin saat aralığına randevu seçilir. İkinci dozanın vurulma tarixi və digər zəruri məlumatlar vətəndaşlara tibb məntəqəsində təqdim edilən "Məlumat forması"nda öz əksini tapıb. Bununla belə, əlavə olaraq SMS vasitəsilə ikinci dozanın vurulma tarixi təkrar bildirilir.

Xatırladaq ki, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nda COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır. Sosial cəhətdən yüksək risk qrupuna səhiyyə işçiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", "DOST" mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərin, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər aiddirlər.

Tibbi cəhətdən yüksək risk qrupuna yaşı 65-dən yuxarı olan, yəni yaşlı əhali, tənəffüs sisteminin xroniki xəstəlikləri olanlar, xroniki hemodializ xəstələri, II tip şəkərli diabetdən əziyyət çəkən 50 yaşdan yuxarı əhali, 18 yaşından yuxarı piylənmədən əziyyət çəkənlər aiddir.

Ötən gündən etibarən səhiyyə işçilərinin ikinci doza vaksinasiyasına başlanılıb. Azərbaycanda istifadə edilən koronavirus vaksininin effektivliyinin müddətini açıqlayan TƏBİB məlumat verib ki, Türkiyədə aparılan tədqiqatların nəticələrinə əsasən, vaksinin effektivliyi 92 faizdir: "Vaksinin insanda yaratdığı immunitetin minimum müddəti 1 ildir. Maksimum müddət isə hələ təsdiqlənməyib".

Respublikamızda pandemiyaya qarşı əldə olunan müsbət tendensiya sərt karantin rejiminin mərhələli şəkildə yumşaldılmasına da şərait yaradıb. Xüsusilə təhsil sahəsində əyani tədrisin bərpası ilə bağlı bir çox açılımlar həyata keçirilib.

Eyni zamanda ötən gündən ali və orta ixtisas təhsili və peşə təhsili müəssisələrində praktiki məşğələlər tələb olunan ixtisaslar (müvafiq laboratoriya və xüsusi təchiz edilmiş auditoriyalarda) və təhsilalanların fiziki iştirakını tələb edən fənlərin və mövzuların əvvəlcədən müəyyən edilmiş cədvəllər üzrə tədrisi (tibb, yaradıcılıq, mühəndislik və s.) ənənəvi formada bərpa edilib. Qərar magistratura səviyyəsində təhsil alanlara da şamil olunur.

15 fevraldan məktəbəqədər təhsil müəssisələrinin (uşaq bağçaları) də fəaliyyətə başlayıb və sözügedən vaxtdan bu müəssisələrdə həftə içi hər gün əyani təlim aparılacaq.



Artıq fevralın 15-dən Bakı, Sumqayıt və Abşeronda yuxarı sinif şagirdləri üçün ənənəvi dərslər başlayıb. Qeyd edək ki, sözügedən ərazilərdə yerləşən ümum - təhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində (I-IV siniflərdə) həftədə 3 dəfə, ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) həftədə 2 dəfə olmaqla dərslər ənənəvi formada bərpa edilib. Bildirək ki, ötən gün Bakı üzrə 225 692 nəfər, Sumqayıt üzrə 27 675 nəfər, Abşeron üzrə isə 29 216 nəfər V-IX sinif şagirdi məktəbə gedib.

Göründüyü kimi pandemiyaya qarşı vətənimizdə aparılan hərtərəfli mübarizə öz bəhrəsini verir və ölkəmiz normal həyata qayıtmağa başlayır. Ölkəmizin vətəndaşları da bu həssas mərhələdə ikiqat məsuliyyətli olaraq maska taxılmasına, şəxsi gigiyenaya, məsafə saxlanılmasına ciddi riayət edərək prosesin sürətlənməsinə töhfə verməlidir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Azərbaycanda koronavirusdan 106 nəfər sağalıb, 74 yeni yoluxma qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 106 nəfər müalicə olunaraq sağalıb, 74 yeni yoluxma faktı qeydə alınıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 232 min 197 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 226 min 760 nəfər müalicə olunaraq sağalıb, 3183 nəfər vəfat edib. Aktiv xəstə sayı 2254 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 506 min 5 test aparılıb. Dünənki test sayı isə 4160-dır.

## Alimlər koronavirusun qarşısının alınması və müalicəsi üçün növbəti dəfə tədqiqat aparıblar

Koronavirusa tutulmuş xəstələrin çoxunun orqanizmində SARS-CoV-2 virusunun çıxıntılı zülalına meyilli neytrallaşdırıcı anticisimlər əmələ gəlir. Onlar gələcəkdə infeksiyalardan müdafiəni təmin edəcəklər.



AZƏRTAC "PLOS Pathogens" jurnalında dərc olunan araşdırmaların nəticələrinə istinadla xəbər verir ki, alimlər koronavirusun qarşısının alınması və müalicəsi üçün anticisimlərlə uyğunlaşdırılmış tədqiqatlar aparıblar. Məlum olub ki, insanların böyük əksəriyyətində neytrallaşdırıcı anticisimlər orta və ağır xəstəliklər zamanı yaranır. Bu anticisimlər, virusla insan hüceyrələrini yoluxdurmaq üçün istifadə olunan SARS-CoV-2 adlanan çıxıntılı zülalın reseptoruna yönəldilir.

Təl-Əviv Universitetinin alimlərinin söylədiklərinə görə, bu cür neytrallaşdırıcı anticisimlər xəstələrin sağalma prosesində aşkarlanıb. Belə xəstələrin bəzilərində, bir qayda olaraq, davamlı və uzunmüddətli immunitet yaranır, digərlərində isə neytrallaşdırıcı anticisimlərin zəifləməsi müşahidə olunur.

Alimlər öz işlərində müqayisə etmək üçün COVID-19-un ağır formasına yoluxmuş 8 nəfər xəstədə B hüceyrələrinin və bu xəstəliyin yüngül simptomları müşahidə olunan 10 nəfər xəstədə isə, yoluxmadan yarım ay sonra molekulyar və bioinformatik metodlardan istifadə ediblər. İmmun sisteminin B hüceyrələrindən əmələ gələn antigen-spesifik immunoglobulini invaziv patogenlərə təsir edir. Tədqiqatın göstərdiyi kimi, koronovirusun ağır formasından sonra xəstələrdə xüsusi anticisimlərin daha yüksək konsentrasiyası və B hüceyrələrinin yüksək göstəriciləri müşahidə olunub. "Thehindubusinessline.com." saytının yazdığına görə, məhz bu səbəbdən də onlarda təkrar yoluxmaya qarşı etibarlı və uzunmüddətli müdafiə əmələ gəlir.

# *İqor KOROTÇENKO:* "Qarabağ müharibəsində Qələbə Prezident İlham Əliyevin siyasətinin zəfəridir"

## Rusiyalı jurnalist və hərbi ekspert Münhen Təhlükəsizlik Konfransından və "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasından ötən bir ildə baş verənləri Azərbaycanın hərbi və siyasi qələbəsi kimi səciyyələndirir

2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilmiş, görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan iştirak etmişdilər.



O vaxtdan keçən bir il xalqımızın həyatında ən əlamətdar illərdən biri oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz torpaqlarımızı erməni işğalından azad etdi.

Rusiyalı jurnalist və hərbi ekspert, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko AZƏRTAC-ın müxbiri ilə söhbətində qeyd edib ki, Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında tarixi debatlardan keçən bir il ərzində Ermənistan-Azərbaycan münaqişəsinin həllində hər şey köklü surətdə dəyişib.

"Bir il əvvəl Münhen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan siyasi opponentlər kimi çıxış edirdilərsə, hər kəs öz ölkəsinin mövqeyini təmsil edirdisə, 44 günlük müharibənin nəticələri isə hər şeyi yerbəyer etdi - Azərbaycan və Prezident İlham Əliyev hərbi və siyasi qələbə qazandılar, Paşinyan və Ermənistan isə təslim oldular. Azərbaycan beynəlxalq hüquq prinsiplərinə, BMT Nizamnaməsinin baza prinsiplərinə əsaslanaraq, ölkənin, ordunun, xalqın imkanlarına arxalanaraq bu məsələni həll etdi. İndi hər şey öz yerini aldı", - deyə o bildirib.

Ekspert xatırladıb ki, hələ Münhen konfransından əvvəl Azərbaycan Prezidenti İlham Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edərkən Ermənistanın baş nazirinin populist fikirlərinə cavab olaraq bildirdi: "Qarabağ Azərbaycandır və nida işarəsi".

"İlham Əliyev bir Prezident və Ali Baş Komandan kimi təsdiq edib ki, Qarabağ Azərbaycandır. Bugünkü reallıq məhz belədir. 44 günlük müharibənin nəticələri bütün dünyada Azərbaycana olan hörmət və nüfuzu əhəmiyyətli dərəcədə artırdı, çünki ölkənin öz ərazi bütövlüyünü bərpa etməsi müasir tarixdə misli görünməmiş bir haldır. Biz ATƏT-in Minsk qrupunun necə işlədiyini gördük, biz bu qanlı və uzunsürən münaqişənin siyasi həllinə dair müxtəlif formatlı təklifləri gördük. Biz erməni siyasətçilərinin kobudluğunu gördük, Paşinyanın hakimiyyətə gəlişindən sonra biz görünməmiş dərəcədə həyasızlıq, kobudluq və özünə arxayınlıq müşahidə etdik, Paşinyanın Şuşa şəhərində separatçı rejimin andiçmə mərasimindəki təhqiramiz rəqslərini, yeni müharibə baş verərsə, Azərbaycanın öz ərazilərinin daha xeyli hissəsini itirəcəyi barədə bəyanatını xatırlayırıq. Ermənistanın Azərbaycanın əsas obyektlərinə preventiv zərbələr endirmək hüququna malik olduğunu deyən müdafiə naziri Tonoyanın da sözlərini xatırlayırıq. Bütün bunlar Azərbaycanın həyata keçirdiyi "Dəmir yumruq" əks-hücum əməliyyatı nəticəsində dağıldı", - deyə İ.Korotçenko bildirib.

Politoloqun vurğuladığına görə, Azərbaycan bu yumruqla erməni təcavüzkarına sarsıdıcı zərbə endirdi və Ermənistan çox sayda ölü və yaralı itirərək təslim olmaq məcburiyyətində qaldı.

"Erməni əsgəri döyüş ruhunu itirdi. On min erməni fərarisi - ay yarım ərzində bu sayda fərari heç bir müharibədə görünməmişdi. Biz Azərbaycan Prezidenti və Ali Baş Komandan İlham Əliyevin siyasətinin zəfərini, Azərbaycan generallarının hərb sənətinin zəfərini görürük. Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsi tarixən əvvəlcədən müəyyən edilmişdi və qaçılmaz idi. Prezident İlham Əliyevin "Valday" Forumunda dediyi "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri yalnız peyğəmbərcəsinə deyilmiş söz deyildi, bu, dediyinə cavabdeh olan, buna əməli işlərdə nail olan liderin sözləri idi", - deyə İqor Korotçenko əlavə edib.

# Vətən Müharibəsi Qəhrəmanı olan şəhidimizin yeni dünyaya gələn övladı xəstəxanadan çıxarılıb

Vətən Müharibəsi Qəhrəmanı, şəhid baş gizir İsmayılov Camal Vidadi oğlunun yeni dünyaya gəlmiş üçüncü övladı fevralın 15-də doğum evindən çıxarılıb.





AZƏRTAC xəbər verir ki, şəhid övladının xəstəxanadan evə buraxılması mərasimində qəhrəman döyüşçünün ailə üzvləri və silahdaşları iştirak ediblər.

Tədbirdə oğlunun qəhrəmanlığından danışan şəhid atası Vidadi İsmayılov bildirib: "Oğlumun iki qızı var idi. Yeni doğulan körpəmiz isə oğlandır. Camalın arzusu ilə nəvəmin adını Alparslan qoyduq. Bu münasibətlə oğlumun döyüş yoldaşları, silahdaşları bizimlə birlikdə bu sevinci bölüşürlər. Mən onlara dərin minnətdarlığımı bildirirəm. Fəxr edirəm ki, Vətən Müharibəsi Qəhrəmanının atasıyam. Başda Müzəffər Ali Baş Komandanımız İlham Əliyev olmaqla, oğlumun komandiri general-leytenant Hikmət Mirzəyev və döyüşdə canlarında keçən şəhidlərimizlə qürur duyuram".

Şəhidin anası Filarə İsmayılova bütün şəhidlərimizə Allahdan rəhmət diləyərək vurğulayıb: "Arzum budur ki, nəvəm də atası kimi igid və qəhrəman övlad olsun, Vətəninə, millətinə bağlı böyüsün. Heç vaxt unutmasın ki, o, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun oğludur".

Camal İsmayılovun həyat yoldaşı Fatimə İsmayılova Vətən uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanların heç vaxt ölmədiklərini, daim xalqın qəlbində yaşadıqlarını bildirib. O, şəhid həyat yoldaşı olduğu üçün qürur duyduğunu vurğulayaraq, oğlunu atasına layiq övlad kimi yetişdirəcəyini deyib.

Qeyd edək ki, baş gizir Camal İsmayılov 1984-cü ildə Neftçala rayonunun Həsənabad qəsəbəsində dünyaya göz açıb. İgid döyüşçü 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olub.

Camal İsmayılov Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Hadrutun və Laçın dəhlizinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 23-də Laçın dəhlizi uğrunda döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpasında xüsusi xidmətlərinə və ərazilərimizin işğaldan azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Camal İsmayılov ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

# Ermənistan səfillər ölkəsinə çevrilir

## Bu ölkədə yoxsulluğun səviyyəsi 30 faizə çatıb, əhalinin alıcılıq qabiliyyəti 5-6 dəfə azalıb

Ermənistanda sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, tənəzzül isə durmadan dərinləşməkdədir. Vətəndaşların rifahı daha da pisləşir və bu vəziyyət sosial narazılığın daha da artmasına səbəb olur. İndi bu ölkədə insanlar gələcəklərinə də nikbin yanaşmır və Ermənistanı tərk etməyə çalışırlar.



Ötən ilin nəticələrinə görə, Ermənistanda makroiqtisadi, eyni zamanda sosial göstəricilərdə kəskin enişlər var. Ermənistanın rəsmi statistikasının məlumatına əsasən, bu gün ölkədə hər 4 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə isə bu göstərici hər 3 nəfərdən birinə aiddir. Sözügedən ölkənin rəsmi statistikasında hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır.

Yoxsulluğun səviyyəsi isə rəsmi statiskaya əsasən, 2020-ci ildə 30 faiz olub. Bu rəqəmin reallıqda daha artıq olması şübhə doğurmur. Əhalinin alıcılıq qabiliyyəti 5-6 dəfə azalıb. Ermənistanın əmək və sosial məsələlər üzrə nazirinin sabiq müavini Tadevos Avetisyan bildirib ki, baş nazir Nikol Paşinyan 2020-ci ili ölkənin "çiçəklənmə" ili adlandırmaqla xalqı aldadır və alçaldır. Onun sözlərinə görə, ölkə əhalisinin sosial vəziyyəti ilbəil ağırlaşır. 2018-ci ildə ölkədə yoxsulluğun səviyyəsi 23,5 faiz, 2019-cu ildə 26,5 faiz olduğu halda, ötən il 29,8 faiz olub. Cari ildə isə bu rəqəm daha da böyüyəcək.

Avetisyan Ermənistanın xarici dövlət borcunun da əsaslı dərəcədə artdığını bildirib. Qeyd edib ki, Ermənistanın dövlət borcu 10 milyard ABŞ dollarına çatıb və ölkə artıq humanitar fəlakətlə üzüzədir.

Ermənistanda iqtisadi vəziyyətin ağırlaşması miqrasiyanı daha da sürətləndirəcək. Məğlub ölkədə xalis miqrasiya dərəcəsi (immiqrantlarla emiqrantlar arasındakı fərq) hər min nəfərə mənfi işarə ilə 5,6-dır. Bu da Ermənistanda emiqrantların sayının immiqrantlardan hər 1000 nəfər üçün 5,6 dəfə çox olduğunu göstərir. Ermənistanda emiqrantların yaşı isə 15-65 arası dəyişir. Bu onu göstərir ki, həm gənclər, həm də yaşlılar üçün, yəni daha geniş yaş spektrində olan vətəndaşlar üçün Ermənistanda yaşamaq və işləmək imkanları daha aşağıdır. Ermənistandan gedənlərə - emiqrantlara həm şəhər, həm də kənd yerlərində rast gəlinir. Digər bir fakt isə erməni emiqrantların daha çox qadın olmasıdır. Asiya İnkişaf Bankının araşdırmasına əsasən, MDB ölkələri arasında yalnız Ermənistan bu göstərici ilə fərqlənir. Bu da faktiki olaraq ölkənin demoqrafik artımına mənfi təsir göstərir.

Bu səbəblərdəndir ki, Yerevanda baş nazir Nikol Paşinyanın istefası tələbi ilə keçirilən aksiyalar davam edir. Etirazçılar mitinqlər, yürüşlər keçirir, paytaxtın mərkəzi küçələrini bağlayır və dövlət orqanlarının işinə mane olmağa çalışırlar. Onlar müharibədəki ağır məğlubiyyətə görə baş nazir Nikol Paşinyanın məsuliyyət daşıdığını və istefa verməli olduğunu bildirirlər.

Hadisələrin bu ssenari üzrə inkişafı Ermənistanda kütləvi aksiyaların gedişində qan töküləcəyindən xəbər verir. Artıq "Vətənin qurtuluşu hərəkatının" lideri Vazgen Manukyanın təşəbbüsü ilə təşkil olunan aksiya zamanı polislə qarşıdurma yaranıb. Polisin intizam çağırışına etiraz edən bir qrup hüquq mühafizə orqanı əməkdaşlarına hücum edib. Buna görə də 20-yə yaxın aksiya iştirakçısı saxlanılıb.

Göründüyü kimi, hakimiyyət özünə qarşı edilən bütün çıxışları birmənalı şəkildə güc yolu ilə susdurmağa, etiraz aksiyalarını polis dəyənəyi hesabına dağıtmağa üstünlük verir. Kütləvi həbslər həyata keçirilir, siyasi partiya rəhbərləri, fəallar saxlanılır və həbs edilir.

Mitinqdə çıxış edən Vazgen Manukyan baş nazir Nikol Paşinyanın istefası ilə bağlı fevralın 20-də daha böyük mitinqin keçiriləcəyini bir daha bəyan edib. Deyib ki, Paşinyanın partiyası yayda növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı məlumat yayıb. "Lakin bu, bizim üçün əsas deyil və biz mübarizəmizi sonadək davam etdirəcəyik", - deyə Manukyan vurğulayıb.

Sosial vəziyyətin getdikcə ağırlaşdığı Ermənistanda intihar halları da artıb. "4rd.am" saytı yazır ki, Ermənistanda intihar və intihara cəhd hadisələri 2018-ci ildə 606, 2019-cu ildə 613, 2020-ci ildə isə 630-dan çox təşkil edib. İntihar edənlər arasında işsizlər böyük əksəriyyət təşkil edirlər. Mütəxəssislərin sözlərinə görə, insanlar pis sosial şərait səbəbindən həyatlarına son verirlər.

Göründüyü kimi, Ermənistan tarixinin ən ağır və əzablı günlərini yaşayır. Hazırda ölkədə bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Bütövlükdə, proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Yaralanmış Vətən müharibəsi qazilərinin yüksək texnologiyalı protezlərlə təminatı davam edir

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Vətən müharibəsində yaralanmış, reabilitasiya vasitələrinə ehtiyacı olan qazilərimizin yüksək texnologiyalı protezlərlə təminatını həyata keçirir. Protezlər nazirliyin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində dünyanın məşhur protez istehsalçıları ilə əməkdaşlıq şəraitində qurulan sexdə hazırlanır.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin reabilitasiya vasitələri yüksək funksionallıq dərəcəsinə malikdir. Elektron oynaq əsasında hərəkətin tam, daha dəqiq tənzimlənməsinə imkan verir, sabit, təhlükəsiz və inamlı hərəkəti təmin edir.

Vətən müharibəsindəki qələbəmizin qəhrəmanlarından olan Əliyev Rəşad Amin oğlu bu günlərdə yüksək texnologiyalı protezlərlə təmin edilib. Döyüşlərdə ağır yaralanaraq ayağını itirən Rəşad bu reabilitasiya vasitəsi ilə artıq sərbəst şəkildə addımlamaq, rahat hərəkət imkanına malikdir.

# Hollandiyalı jurnalistlər Naftalanda olmuşlar

Bu gün bölgələrimizdə elə istirahət və müalicə məkanları var ki, onlar təkcə ölkəmizdə yox, bütün dünyada tanınır. Belə məkanlardan biri də Naftalandır.



Son illər həyata keçirilən böyük infrastruktur layihələri bu unikal sağlamlıq mərkəzinin əvvəlki şöhrətini qaytarmaqla yanaşı, xarici ölkə vətəndaşlarının da maraq və diqqətini cəlb etmişdir. Elə bu günlər hollandiyalı jurnalistlərin Azərbaycanın bu əvəzolunmaz müalicə ocağına səfər etmələri dediklərimizə sübutdur.

Əsası 1919-cu ildə qoyulan və gündəlik nəşri 250 min nüsxədən çox olan "De Volksrant" adlı Hollandiya qəzetinin müxbirləri Jarl Ploeg və Frederik Berghin Naftalanda gördükləri onlarda xoş təəssürat yaratmışdır.

Şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov qonaqları qəbul edərək onlara Naftalan neftinin müalicəvi xüsusiyyətləri, son illər şəhərdə həyata keçirilən layihələr, eləcə də Vətən müharibəsində qazandığımız qələbənin əhəmiyyəti, həmçinin regionda ilk dəfə burada açılan "Little Free Library " kitabxanası haqqında ətraflı məlumat vermişdir.

Sonra qonaqlar Naftalan nefti ilə yaxından tanış olmaq üçün bir neçə müalicə mərkəzində olmuşlar. Burada mütəxəssislər jurnalistləri maraqlandıran sualları cavablandırmışlar. Qonaqlar həmçinin neftin quyulardan çıxarılması texnologiyasına baxmışlar.

Jurnalistlər səfərin sonunda Vətən müharibəsi dövründə düşmən tərəfindən atılan ağır artilleriya atəşi nəticəsində bir ailənin 5 üzvünün həlak olduğu Qaşaltı-Qaraqoyunlu kənd sakini Nadir Qurbanovun evinə getmiş, ermənilərin törətdikləri vəhşiliyin şahidi olmuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
### *açıq tender elan edir*

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi üçün texniki avadanlıqların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Əlaqələndirici şəxs - Ələmqulu Quliyev (012 525 50 26 #9236)

**İştirak haqqı : LOT üzrə 100 ( bir yüz ) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**S.W.I.F.T: IBAZAZ2**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) 01.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığın, təcrübənin və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 09.03.2021-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 17.03.2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18.03.2021-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyi Publik Hüquqi Şəxs "DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti Maşın və avadanlıqların alınması təsnifatı üzrə malların satın alınması üçün
### *açıq tender elan edir*

Tender 1(bir) LOT üzrə aparılır.

LOT-1. Maşın və avadanlıqlar təsnifatı üzrə malların satın alınması (311150. - Maşın və avadanlıqlar alınması)

Tender iştirakçıları dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər iştirak haqqının ödənilməsini yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilərlər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyatı keçid vasitəsilə ödənişi etdikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edərək öz tender təkliflərini Portal üzərindən təqdim edə bilərlər.

**İştirak haqqı: LOT-1 300 manat**

İştirak haqqı heç bir halda qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (2021-ci il tarixdə alınmış arayış qəbul ediləcək). (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019/2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) 01.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (2021-ci il tarixdə alınmış arayış qəbul ediləcək);*

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün şəkildə, vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərənləri (podratçıları) satınalan təşkilat iddiaçı kimi qeydə alacaqdır.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən "Əsas şərtlər topIusu"nda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Tender təklifinin qiymətinə bütün vergi, nəqliyyat və sığorta xərcləri daxil edilərək manatla hesablanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 09 mart 2021-ci il saat 11:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 17 mart 2021-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18 mart 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə
Telefon: (051) 207-59-12
E-mail: nasimi.karimzada@mlspp.gov.az / dost_ish@mlspp.gov.az
Ünvan: AZ1100, Bakı şəhəri, Yasamal rayonu, Nazim Hikmət küçəsi, 27

***Tender komissiyası***

# “OPSİ”nin internet səhifəsində “Azərişıq” ASC ilə bağlı məqalə dərc edilib

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əsaslı islahatlar davamlı olaraq həyata keçirilir. Dövlətin son illər elektroenergetika sahəsində paylayıcı şəbəkəyə yönəltdiyi diqqət nəticəsində “Azərişıq” ASC-nin müasir standartlara uyğun yenidən qurulması və inkişafı mənzil qərargahı Paris şəhərində yerləşən, dövlət sektoru yeniliyi üçün qlobal forum olan “OPSİ” şirkətinin diqqətindən yayınmayıb.

“OPSİ” şirkətinin rəsmi internet səhifəsində “Azərişıq” ASC ilə bağlı dərc edilən məqalədə elektron xidmətlər nəticəsində sahibkarın bir pəncərə sistemi vasitəsilə elektrik bağlantısı üçün onlayn müraciətlərindən bəhs edilir. Sahibkarın elektrik enerjisi ilə təmin edilməsi 10 iş günü ərzində yerinə yetirilir.

Son illərdə respublikamızda enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlər öz miqyası və əhəmiyyəti ilə seçilir. İstehlakçıların etibarlı, təhlükəsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunması üçün “Azərişıq” tərəfindən elektrik şəbəkələrinin əsaslı surətdə yenidən qurulması istiqamətində irimiqyaslı tədbirlər həyata keçirilir.

Bunlardan biri də “Azərişıq” ASC-də sahibkarların mövcud və ya tikilməkdə olan binalarına 150 kilovata qədər elektrik enerjisi verilməsi üçün yenilikçi və inkişaf etmiş elektron xidmətin yaradılmasıdır.

Məqalədə həmçinin vurğulanır ki, islahatların əsas məqsədi 100 faiz elektron xidmət göstərmək, vətəndaşların xərclərini və vaxtlarını azaltmaq, şəbəkəyə qoşulmaq üçün müraciət müddətini azaltmaq, şəffaflığı artırmaq, korrupsiyaya qarşı mübarizəni gücləndirmək, daha yüksək minimumstandartlara cavab vermək, peşəkarlıq səviyyəsini yüksəltmək və vətəndaşlara qarşı etik qaydalara daha yaxşı əməl etməkdir.

“OPSİ” şirkətinin məqaləsində qeyd edildiyi kimi, yeni islahatlara görə, sahibkar “Azərişıq” saytını ziyarət edərək birpəncərə sistemi vasitəsi ilə elektrik enerjisi əldə etmək üçün onlayn müraciət edir və bu prosesi sona qədər izləyə bilir.

Yeniliyin özünəməxsusluğu ondadır ki, dövlət işçisi ilə sahibkar arasında heç bir əlaqə yoxdur - təşəbbüskar yalnız elektron sistemlə əlaqə qurur.

***“Azərbaycan”***

# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *“Azərpoçt” ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *“Qaya” firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *“Kaspi” MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *“Region Press” MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *“Səma-M” MMC* | (012) 594-09-59 |
| *“Ziya” LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *“Pressinform” MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *“City press” MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## “Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq “Chevrolet Niva” nəqliyyat vasitəsinin satın alınması üzrə kotirovka sorğusu elan edir

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış Əsas şərtlər toplusunu "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatından əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 22 fevral 2021-ci il saat 15:00-a qədər qəbul olunur.

Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Fəxrəddin Orucova müraciət edə bilərlər.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi, 125

Telefon: (012) 538-92-35

e-mail: maliyye.aqrarkredit@mail.ru

***Tender komissiyası***

## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti Heydər Əliyev Beynəlxalq Aeroportunda mövcud 1 və 4A saylı drenaj-nasos stansiyalarında əlavə olaraq 2 ədəd şaquli dalğıc nasoslarının alınıb, köməkçi işlər də daxil olmaqla quraşdırılması işlərinin satın alınması məqsədilə 1 LOT-dan ibarət

### *açıq tender elan edir*

LOT 1 - Heydər Əliyev Beynəlxalq Aeroportunda mövcud 1 və 4A saylı drenaj-nasos stansiyalarında əlavə olaraq 2 ədəd şaquli dalğıc nasoslarının alınıb, köməkçi işlər də daxil olmaqla quraşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı və Əsas şərtlər toplusunu əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT 1: 1000 AZN**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Hesab: AZ88AZAL38050000001000002000**
**VÖEN: 9900000831**
**Bank: “PREMIUM BANK”ASC-nin 2 saylı filialı**
**Bankın VÖEN-i: 9900006241**
**Kod: 508267**
**M/H: AZ70NABZ01350100000000020944**
**S.W.I.F.T: AZAL AZ 22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təklif zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (ən azı tender təklifinin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 10.03.2021-ci il saat 14:30-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 18.03.2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 19.03.2021-ci il saat 14:30-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

Əlaqələndirici şəxs: Hava Limanlarının İstismarı Baş İdarəsinin rəis müavini - Xaqani Həsənov (99412) 497-26-00. Əlavə (26-01); (90-64); e-mail: hgasanov@airport.az

***Tender komissiyası***

## Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi 2021-ci il üçün malların, iş və xidmətlərin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: İdris Mahac oğlu Eyvazov
Ünvan: İmişli rayonu, Qaradonlu kəndi
e-mail: merkezimugankii@mst.gov.az
Tel: 02124-2-12-62

Tender 9 (doqquz) LOT üzrə keçiriləcək.

**LOT 1 - Avtomaşın və mexanizmlər üçün ehtiyat hissələrinin satın alınması**
**LOT 2 - Cari təmir işləri üçün tikinti materiallarının satın alınması**
**LOT 3 - Qum-çınqıl məmulatlarının satın alınması**
**LOT 4 - Beton məmulatlarının satın alınması**
**LOT 5 - Biləsuvar-Cəlilabad rayonları ərazisindəki kollektorların lildən təmizlənməsi işlərinin satın alınması**
**LOT 6 - İmişli rayonu ərazisindəki kollektorların lildən təmizlənməsi işlərinin satın alınması**
**LOT 7 - Saatlı rayonu ərazisindəki kollektorların lildən təmizlənməsi işlərinin satın alınması**
**LOT 8 - Saatlı rayonu Sağ Sahil kollektorunda (PK 103) körpünün əsaslı təmiri işlərinin satın alınması**
**LOT 9 - Saatlı rayonu Sağ Sahil kollektorunda (PK 272) körpünün əsaslı təmiri işlərinin satın alınması**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba 100 (bir yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi**
**H/h: AZ71CTRE00000000000002354003**
**VÖEN: 5500129781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: BIK: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

1. *İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
2. *Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı-bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
4. *Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*

4.1. *Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notariusdan təsdiq olunmuş);*
4.2. *Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi (05.01.2021-ci ildən sonrakı tarixə alınmış);*
4.3. *Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır):*

- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar (05.01.2021-ci ildən sonrakı tarixə alınmış);*
- *Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış (05.01.2021-ci ildən sonrakı tarixə alınmış);*
- *Dövlət Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış (05.01.2021-ci ildən sonrakı tarixə alınmış);*

4.4. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **10.03.2021-ci il saat 10:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **18.03.2021-ci il saat 10:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **19.03.2021-ci il saat 10:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərişıq” ASC tərəfindən 27 yanvar 2021-ci il tarixdə **“Müxtəlif sərfiyyat və xüsusi mətbəə mallarının satın alınması”** məqsədilə elan edilmiş elektron tender üzrə iddiaçı şirkətlərin müraciətlərini nəzərə alaraq tender sənədlərinin qəbulu 09 mart 2021-ci il saat 11:00-a, tender təkliflərinin qəbulu 17 mart 2021-ci il saat 11:00-a, zərflərin açılışı 18 mart 2021-ci il saat 11:00-a qədər uzadılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Aztelekom” MMC tərəfindən 23.10.2020-ci il tarixdə vahid satınalma Portalında “Aztelekom” MMC-nin inzibati binasında və struktur bölmələri, o cümlədən kənd EATS-nin cari təmir-tikinti işlərinin satın alınması” məqsədilə elan olunmuş açıq tender (e.tender) proseduru Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin AİBNDX-15/01-5/271P saylı məktubuna əsasən ləğv olunur.

***Tender komissiyası***

## “Azərişıq” ASC müxtəlif videomüşahidə və görüntü cihazlarının satın alınması məqsədilə kotirovka sorğusu elan edir

İddiaçılar təkliflərini möhürlənmiş qaydada, ikiqat zərflərdə 25 fevral 2021-ci il saat 16:00-a qədər “Azərişıq” ASC-nin Tender komissiyasına təqdim etməlidirlər. Zərflər 26 fevral 2021-ci il saat 11:00-da aşağıda qeyd olunan ünvanda açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqələndirici şəxs: Orxan İbrahimov
Telefon: (012) 440-39-93, daxili (28-15)
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Səyyad Kərimov, Aqşin Məmmədzadə, Eldar Əsgərov, Kəmalə Paşayeva, Sədaqət Bağırova, Tamerlan Şeyxzamanov, Ramil Cəfərov, Mahir Süleymanlı, Samir Yusifov, Ramin Cəlilov, Fərid İsrafilov, Nəzrin Əliyeva, Mətanət Qəmbərova və Əfsanə Nəsirova həmin şöbənin insan hüquqları üzrə qanunvericilik sektorunun müdiri Sarvan Sadıqova əzizi

**PƏRVİZ FEYRUZ OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Səyyad Kərimov, Aqşin Məmmədzadə, Eldar Əsgərov, Sarvan Sadıqov, Kəmalə Paşayeva, Sədaqət Bağırova, Tamerlan Şeyxzamanov, Ramil Cəfərov, Mahir Süleymanlı, Samir Yusifov, Ramin Cəlilov, Fərid İsrafilov, Nəzrin Əliyeva və Əfsanə Nəsirova həmin şöbənin baş mütəxəssisi Mətanət Qəmbərovaya qardaşı

**RAUF HƏSƏN OĞLU QƏMBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5203
Sifariş 272
Qiyməti 40 qəpik